# Dövlət qulluğu sınaq imtahanı №1



Sual **1**
Cavablandırılmayıb
0 - 1
İşarə

Biri düzəltmə sifətdir:

Cavablardan birini seçin:
- A. xoşxasiyyət
- B. həmişəyaşar
- C. məsləkdaş
- D. hündürboy
- E. xəyalpərəst

Sual **2**
Cavablandırılmayıb
0 - 1
İşarə

Qeyri-müəyyən əvəzliyin işləndiyi cümləni müəyyən edin.

Cavablardan birini seçin:
- A. Mən bir qədər fikrə getdim, düzü, cavab verməkdə çox çətinlik çəkirdim.
- B. Bir sıra məsələlərin müzakirəsi üçün hələ tezdir.
- C. Belə dostdan kim inciyər, kim küsər?
- D. Hərdənbir dostlarla görüşməyimiz köhnə günlərimizi yadımıza salır.
- E. Hərə mühasirədən çıxmağın bir yolunu təklif edirdi, amma ortaq qərara gəlmək mümkün olmurdu.

Sual **3**
Cavablandırılmayıb
0 - 1
İşarə

Nida ilə bağlı verilmiş fikirlərdən biri düzgün ***deyil***.

Cavablardan birini seçin:
- A. Cümlənin ortasında işlənən nidadan əvvəl və sonra vergül qoyulur.
- B. Mürəkkəb nidalar həmişə ayrı yazılır.
- C. Çağırış nidalarından sonra, adətən, xitab gəlir və vergül xitabdan sonra qoyulur.
- D. Nidalar quruluşuna görə sadə və mürəkkəb olur.
- E. Cümlənin əvvəlində işlənən nidadan sonra intonasiyadan asılı olaraq vergül və ya nida qoyulur.

Download: http://Yusif.Az

Sual **4**
Cavablandırılmayıb
0 - 1
İşarə

*"Bu gün pediatr Murad həkim bizə gəlmişdi"* cümləsində hansı cümlə üzvü ***işlənməmişdir***?

Cavablardan birini seçin:

A. təyin

B. zərflik

C. mübtəda

D. tamamlıq

E. xəbər

Sual **5**
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı cümlə mürəkkəbdir?

Cavablardan birini seçin:

A. Həm yazır, həm də oxuyur.

B. O, nə yatır, nə də dincəlir.

C. Deyərsən, eşidərik.

D. Qızım, özünüzü ələ alın.

E. Yağış yağır, hər tərəfi suya qərq edirdi.

Sual **6**
Cavablandırılmayıb
0 - 1
İşarə

Müxtəlif üslub nümayəndələrinin bir-biri ilə ünsiyyət saxladığı üslubu müəyyən edin.

Cavablardan birini seçin:

A. işgüzar

B. rəsmi

C. bədii

D. publisistik

E. məişət

Sual **7**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Topoqrafiya" sözündə vurğu neçənci hecaya düşür?

Cavablardan birini seçin:

A. 3-cü

B. 2-ci

C. 5-ci

D. 4-cü

E. 1-ci

Download: http://Yusif.Az

Sual **8**
Cavablandırılmayıb
0 - 1
İşarə

Orfoqrafik cəhətdən düzgün ***olmayan*** sözü müəyyən edin.

Cavablardan birini seçin:

- A. drijor
- B. günbəz
- C. gimnaziya
- D. hegemon
- E. işgəncə

Sual **9**
Cavablandırılmayıb
0 - 1
İşarə

Sinonimlərlə bağlı fikirlərdən biri düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. Sözün bədii təsir gücünü artırır.
- B. Müxtəlif nitq hissələrinə aid olur.
- C. Yazılışı və deyilişi müxtəlif, mənaları eyni və ya yaxın olur.
- D. Bütün sinonimlər bir-birilərini əvəz edə bilmir.
- E. Təkcə sözlərdə deyil, söz birləşmələrində də sinonimlik müşahidə olunur.

Sual **10**
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı mürəkkəb adın ilk sözü dırnaqda yazılmalıdır?

Cavablardan birini seçin:

- A. Türkmənçay müqaviləsi
- B. Ramazan bayramı
- C. Kəpəz dağı
- D. Sasanilər sülaləsi
- E. Şöhrət ordeni

Sual **11**
Cavablandırılmayıb
0 - 1
İşarə

İsimdən düzəlmiş feilləri müəyyən edin.

Cavablardan birini seçin:

- A. sakitləşmək, arxayınlaşmaq
- B. oturmaq, saralmaq
- C. vuruşmaq, döyüşmək
- D. gözləmək, otarmaq
- E. çoxalmaq, azalmaq

Download: http://Yusif.Az

Sual **12**

Cavablandırılmayıb

0 - 1

İşarə

Hansı söz birləşməsində əvəzliyi isimlə əvəz etmək olar?

Cavablardan birini seçin:

A. sənin evin

B. bizim bağımız

C. onun qələmi

D. sizin çantanız

E. mənim kitabım

Sual **13**

Cavablandırılmayıb

0 - 1

İşarə

"*Biz hər axşam babamla görüşər, onunla maraqlı söhbətlər edərdik*" cümləsindəki həmcins üzvlərdə nə ixtisar olunmuşdur?

Cavablardan birini seçin:

A. idi hissəciyi və keçmiş zaman şəkilçisi

B. idi hissəciyi və gələcək zaman şəkilçisi

C. keçmiş zaman şəkilçisi və mənsubiyyət şəkilçisi

D. keçmiş zaman şəkilçisi və xəbərlik şəkilçisi

E. idi hissəciyi və xəbərlik şəkilçisi

Sual **14**

Cavablandırılmayıb

0 - 1

İşarə

Nümunə əməli yazının hansı növünə aiddir?
"*Kitabda antonimlər – mənaca bir-birinin əksi olan sözlər toplanmışdır. Onların hamısı bədii əsərlərdən misallarla verilib. Burada ancaq müxtəlif köklü leksik antonim cütlüklər verilmişdir*".

Cavablardan birini seçin:

A. rəy

B. xasiyyətnamə

C. annotasiya

D. akt

E. protokol

Sual **15**

Cavablandırılmayıb

0 - 1

İşarə

"*Gənclər Yaşar Elsevər Həmid vətənə döndülər*" cümləsində hansı durğu işarələri buraxılıb?

Cavablardan birini seçin:

A. qoşa nöqtə, bir tire

B. qoşa nöqtə, iki vergül

C. bir tire, bir vergül

D. qoşa nöqtə, iki vergül, bir tire

E. bir tire, üç vergül

Download: http://Yusif.Az

Sual 16
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Prezident seçilmiş şəxs and içir:

Cavablardan birini seçin:

- A. Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə
- B. Nazirlər Kabineti üzvlərinin iştirakı ilə
- C. Milli Məclis deputatlarının iştirakı ilə
- D. Təhlükəsizlik Şurası üzvlərinin iştirakı ilə

Sual 17
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, staj müddəti qurtardıqdan sonra kuratorun tövsiyəsi müsbət olarsa, stajçı hansı qaydada qulluğa qəbul edilir?

Cavablardan birini seçin:

- A. dövlət orqanı rəhbərinin əmri ilə əmək müqaviləsi bağlamadan 3 ay sınaq müddətinə dövlət qulluğuna qəbul edilir
- B. dövlət orqanı rəhbərinin əmri ilə daimi dövlət qulluğuna qəbul edilir
- C. əmək müqaviləsi (kontrakt) bağlamaq yolu ilə altı ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir
- D. əmək müqaviləsi bağlamaq yolu ilə üç ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir

Sual 18
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa əsasən hansı dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti 5 ildən artıq uzadıla bilər?

Cavablardan birini seçin:

- A. inzibati vəzifələrin ali-üçüncü təsnifatına aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun
- B. inzibati vəzifələrin yalnız birinci təsnifatına aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun
- C. Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti 5 ildən artıq uzadıla bilməz.
- D. dövlət qulluğunda intizam tənbeh tədbirləri tətbiq edilməyən dövlət qulluqçusunun

Sual 19
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na əsasən inzibati vəzifələrin birinci təsnifatına aiddir:

Cavablardan birini seçin:

- A. Məhkəmə – Hüquq Şurasının sədri
- B. Məhkəmə – Hüquq Şurasının sədr müavini
- C. Məhkəmə – Hüquq Şurasının aparat rəhbərinin müavini
- D. Məhkəmə – Hüquq Şurasının Aparatının rəhbəri

Download: http://Yusif.Az

Sual 20
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən informasiya sorğusunun icra müddəti ən geci neçə gün təşkil edir?

Cavablardan birini seçin:

- A. 30 iş günü;
- B. 10 iş günü;
- C. 20 iş günü;
- D. 7 iş günü;

Sual 21
Cavablandırılmayıb
0 - 1
İşarə

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa əsasən informasiyanın xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edilməsi qaydası necə müəyyən edilir?

Cavablardan birini seçin:

- A. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərində "məxfi" qeydi yazılmaqla
- B. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərinə "Xidməti istifadə üçün" qeydi yazılmaqla
- C. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərində "gizli (konfidensial)" qeydi yazılmaqla
- D. xidməti istifadə üçün nəzərdə tutulan sənədlərin və (və ya) onların saxlandığı qovluğun üzərinə "məxfi (konfidensial)" qeydi yazılmaqla

Sual 22
Cavablandırılmayıb
0 - 1
İşarə

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən "*normativ hüquqi akt*":

Cavablardan birini seçin:

- A. tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir
- B. qüvvəsi bir və ya bir neçə dövlət orqanının çərçivəsi ilə məhdudlaşan qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir
- C. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda nəzərdə tutulan yalnız dövlət orqanı tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir
- D. dövlət və ya yerli özünüidarə orqanı tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir

Download: http://Yusif.Az

Sual **23**

Cavablandırılmayıb

0 - 1

İşarə

“Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa dövlət sirrinə aid ***deyil***:
1. Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin səhhəti haqqında məlumatlar
2. insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması faktları haqqında məlumatlar
3. məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında məlumatlar
4. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş və səfərbərlik hazırlığı haqqında məlumatlar
5. kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri haqqında məlumatlar

Cavablardan birini seçin:

- A. 2, 5
- B. 1, 2
- C. 3, 4
- D. 3, 5

Sual **24**

Cavablandırılmayıb

0 - 1

İşarə

“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanuna əsasən verilmiş anlayışlardan yanlış göstəriləni müəyyən edin.

Cavablardan birini seçin:

- A. diskresion səlahiyyətlər - fiziki şəxsin hüquqi statusuna (prinsipial hərəkət azadlığına) hər hansı müdaxilənin gözlənilən nəticəyə mütənasib olması
- B. qarşılıqlı etimad - inzibati orqanla fiziki və ya hüquqi şəxs arasındakı qarşılıqlı münasibətlərdə müəyyən qanuni hərəkətlərə və ya inzibati praktikaya əsaslanan inam;
- C. əlverişli inzibati akt - maraqlı şəxsə hüquq verən və ya onun hüququnu təsdiq edən, yaxud onun üzərinə qoyulmuş vəzifəni (vəzifələri) götürən akt
- D. inzibati akt - inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir

Download: http://Yusif.Az

Sual 25
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən uyğunluğu müəyyən edin:
1. Müvəkkil Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər
2. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verə bilər

a. əfv
b. insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə qanunların qəbul edilməsinə
c. vətəndaşlıq
d. insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə qanunların yenidən baxılmasına
e. amnistiya elan edilməsi

Cavablardan birini seçin:
- A. 1 – b, c; 2 – a, d, e
- B. 1 – c, e; 2 – a, b, d
- C. 1 – a, b, e; 2 – c, d
- D. 1 – a, c; 2 – b, d, e

Sual 26
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən Müvəkkil "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun hansı tələblərinə riayət edilib-edilmədiyini aydınlaşdırır?
1. informasiya sorğusunun qanunla nəzərdə tutulmuş qaydada, müddətdə və üsulla təmin edilməsi
2. informasiya əldə etmək üçün müraciətin (informasiya sorğusunun) qeydiyyata alınması
3. informasiya əldə etmək üçün yaradılmış imkanlardan kifayət qədər səmərəli istifadə edilməsi
4. informasiyanın əldə olunmasına qoyulan məhdudiyyətin qanunla nəzərdə tutulmuş qaydada müəyyənləşdirilməsi
5. informasiyanın xidməti qaydada məxfi və ya gizli məlumata aidliyinin yoxlanılması

Cavablardan birini seçin:
- A. 2, 3, 4
- B. 1, 2, 3
- C. 3, 4, 5
- D. 1, 2, 4

Download: http://Yusif.Az

Sual 27
Cavablandırılmayıb
0 - 1
İşarə

“Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununa əsasən elektron sənədin saxlanması zamanı nəzərə alınmalı olan hallar hansı variantda doğru ifadə olunmuşdur:

Cavablardan birini seçin:

- A. elektron sənəddə olan informasiya istifadə üçün yararlı və əldə edilə bilən olmalıdır.
- B. elektron sənəddə olan məlumat konfidensial olmamalıdır.
- C. elektron sənəd onu Göndərəni, Alanı, göndərilmə və alınma vaxtı və yerini müəyyən etməyə imkan verməlidir.
- D. elektron sənəd yaradıldığı, ötürüldüyü və ya qəbul edildiyi quruluşu saxlamalıdır

Sual 28
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən fiziki şəxsin statusu ilə bağlı Mülki Məcəllə ilə müəyyən edilən və aşağıda göstərilənlərə uyğun müddəaları seçin:
1. 14 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti;
2. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti;
3. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması;

a. Həmin yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır;
b. Həmin yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya himayəçi tərəfindən bəyənildikdə də etibarlıdır;
c. Həmin yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər;
d. Həmin yetkinlik yaşına çatmayanlar əqdləri öz qanuni nümayəndələrinin valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar;
e. Fiziki şəxsin üzərində təyin edilmiş himayəçilik məhkəmənin qərarına əsasən ləğv olunur.

Cavablardan birini seçin:

- A. 1 – a; 2 – c; 3 – b
- B. 1 – a, d; 2 – b, c; 3 – e
- C. 1 – a, c; 2 – b, d; 3 – e
- D. 1 – c; 2 – d; 3 – b, a

Download: http://Yusif.Az

Sual **29**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsi"nə əsasən işəgötürən kimlərə natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməyə borclu ***deyil***?

Cavablardan birini seçin:

- A. işçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu) əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edən şəxslərə
- B. xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edən işçilərə
- C. hərbi qulluqçuların arvadlarına (ərlərinə)
- D. on dörd yaşına çatmamış, yaxud sağlamlıq imkanları məhdud uşağı olan qadınlara

Sual **30**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsi"nə əsasən Azərbaycanın Milli Qəhrəmanlarına neçə gün məzuniyyət verilir?

Cavablardan birini seçin:

- A. 46 gündən az olmayaraq
- B. 42 gündən az olmayaraq
- C. 40 gündən az olmayaraq
- D. 45 gündən az olmayaraq

Sual **31**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənədin hazırlanması üçün əsas götürülmüş faktların və hadisələrin təsviri verilir:

Cavablardan birini seçin:

- A. sənədin ikinci hissəsində
- B. sənədin birinci hissəsində
- C. sənədin başlığında
- D. sənədin qoşmasında

Sual **32**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Azərbaycan Respublikasının Dövlət gerbi haqqında” Əsasnamədə göstərilən hallardan başqa Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ verilə bilər:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Milli Məclisi (Parlamenti) tərəfindən
- B. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən
- C. Azərbaycan Respublikasının Prezidenti tərəfindən
- D. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən

Download: http://Yusif.Az

Sual **33**

Cavablandırılmayıb

0 - 1

İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən aşağıdakı məsələlər üzrə referendum keçirilə ***bilməz***:

1. Baş Nazirin seçilməsi
2. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi
3. senzuranın tətbiq edilməsi
4. Azərbaycan Respublikasının adının dəyişdirilməsi
5. dövlət büdcəsi
6. Azərbaycan Respublikasının inzibati quruluşunun dəyişdirilməsi
7. əfvetmə

Cavablardan birini seçin:

- A. 1, 4, 6
- B. 1, 5, 7
- C. 2, 5, 7
- D. 1, 3, 4

Sual **34**

Cavablandırılmayıb

0 - 1

İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən məhkəmə hakimiyyətini həyata keçirir:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası
- B. Azərbaycan Respublikasının məhkəmələri
- C. yalnız Azərbaycan Respublikasının Ali Məhkəməsi
- D. fövqəladə qaydada yaradılmış məhkəmələr

Sual **35**

Cavablandırılmayıb

0 - 1

İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən məlumat azadlığına aid ***deyil***:

Cavablardan birini seçin:

- A. istənilən məlumatın mühafizəsi azadlığı
- B. istənilən məlumatın qanuni yolla axtarılması azadlığı
- C. istənilən məlumatın ötürülməsi azadlığı
- D. istənilən məlumatın əldə edilməsi azadlığı

Sual **36**

Cavablandırılmayıb

0 - 1

İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, təqsirsizlik prezumsiyası ilə bağlı düzgün ifadə edilmiş müddəanı müəyyən edin:

Cavablardan birini seçin:

- A. Hər bir təqsirləndirilən şəxs təqsirsizlik prezumsiyası prinsipinə əsaslana bilməz;
- B. Bir qayda olaraq, təqsirləndirilən şəxs ona elan edilmiş ittihamı sübuta yetirməyə borclu deyildir.
- C. Məhkəmənin qərarı olmasa, hər bir şəxs cinayətin törədilməsində təqsirsiz sayılır;
- D. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə olunmuş sübutlardan istifadə edilə bilməz;

Download: http://Yusif.Az

Sual 37
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlət rəmzləri ilə bağlı düzgündür:

Cavablardan birini seçin:

- A. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.
- B. Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilir.
- C. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət dilinə hörmət etməlidir.
- D. Azərbaycan Respublikası Dövlət bayrağının yuxarı zolağı yaşıl rəngdədir.

Sual 38
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin sədri növbədənkənar sessiyaları çağırır:

Cavablardan birini seçin:

- A. Milli Məclisin 42 deputatının tələbi əsasında
- B. Azərbaycan Respublikası Ali Məhkəməsinin tələbi əsasında
- C. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin tələbi əsasında
- D. Milli Məclisin 40 deputatının tələbi əsasında

Sual 39
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclis aşağıdakı məsələlərdən hansılara dair ümumi qaydalar müəyyən edərkən 83 səs çoxluğu ilə qanunlar qəbul edir:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər, referendum və məhkəmə quruluşu
- B. referendum, prokrorluq, Milli Məclis deputatlarının və hakimlərin statusu
- C. Azərbaycan Respublikası Prezidentinin seçkiləri, referendum və Milli Məclisin deputatlarının statusu
- D. bələdiyyələrə seçkilər, referendum, məhkəmə icraatı

Sual 40
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi:

Cavablardan birini seçin:

- A. ümumi işlər üzrə ali məhkəmə orqanıdır
- B. ixtisaslaşdırılmış məhkəmənin icraatına aid edilən cinayət işləri üzrə ali məhkəmə orqanıdır
- C. birinci instansiya məhkəmələrinin icraatına aid edilən mülki və cinayət işləri üzrə ali məhkəmə orqanıdır
- D. ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır

Download: http://Yusif.Az

Sual 41
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həll etdiyi məsələlərə dair qəbul edir:

Cavablardan birini seçin:

- A. qanunlar
- B. fərmanlar
- C. sərəncamlar
- D. qərarlar

Sual 42
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Konstitusiyanın aşağıdakı bölməsinə əlavələr təklif oluna ***bilməz***:

Cavablardan birini seçin:

- A. Ümumi müddəalar
- B. Dövlət hakimiyyəti
- C. Hüquq və qanun
- D. Əsas hüquqlar, azadlıqlar və vəzifələr

Sual 43
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluğunun əsas vəzifələrinə aid ***deyil***:

Cavablardan birini seçin:

- A. Dövlət orqanlarının səmərəli fəaliyyətinin təmin edilməsi
- B. Dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi
- C. AR Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi
- D. Vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi

Sual 44
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən 3-cü kateqoriya dövlət orqanıdır:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi
- B. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yerli bölməsi
- C. Zaqatala Rayon İcra Hakimiyyəti
- D. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Bakı şəhər Təhsil İdarəsi

Download: http://Yusif.Az

Sual **45**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının qanuna əsasən, dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı məhdudiyyətlərlə bağlı müəyyən edilən tələblərə zidd hərəkət etdikdə qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməsinin əsası kimi düzgün ifadə edilən müddəanı seçin:

Cavablardan birini seçin:

- A. Dövlət qulluqçusu əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir;
- B. Dövlət qulluqçusu əgər qanunvericilikdə ayrı hal nəzərdə tutulmayıbsa və bu hal qulluqla bir araya sığmayan deyildirsə, xəbərdarlıq aldıqdan sonra iyirmi gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa qulluğa üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir;
- C. Dövlət qulluqçusu əgər qanunvericilikdə ayrı hal nəzərdə tutulmayıbsa və bu hal qulluqla bir araya sığmayan deyildirsə, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir;
- D. Dövlət qulluqçusu əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra iyirmi gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa qulluğa üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir;

Sual **46**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət məvacibinin məbləği asılı ***deyil***:

Cavablardan birini seçin:

- A. tələb olunan peşəkarlıq səviyyəsindən
- B. vətəndaşlıqdan
- C. məsuliyyət dərəcəsindən
- D. səlahiyyət həcmindən

Sual **47**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları”na əsasən dövlət qulluqçusunun dövlət qulluğunda qulluq stajı hesablanarkən nəzərə ***alınmır***:

Cavablardan birini seçin:

- A. əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət
- B. məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş dövlət qulluqçusunun məcburi işburaxma dövrü
- C. müddətli həqiqi hərbi xidmətdə olduğu dövr
- D. dövlət qulluğu vəzifəsində staj və sınaq müddəti

Download: http://Yusif.Az

Sual 48
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununa əsasən dövlət qulluqçusunun xidməti davranışı:

Cavablardan birini seçin:

A. qanunvericiliklə ona verilmiş səlahiyyətlərin həyata keçirilməsi zamanı öz vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir

B. qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir

C. yalnız qanunvericiliklə ona verilmiş vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar fəaliyyətidir

D. qanunvericiliklə ona verilmiş hüquq və vəzifələrin həyata keçirilməsi zamanı etik davranış qaydaları çərçivəsində fəaliyyətidir

Sual 49
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının qanuna əsasən, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum etik davranış qaydalarına əməl olunmasına nəzarəti həyata keçirir:

Cavablardan birini seçin:

A. xidməti qaydada

B. tabelilik qaydasında

C. nizamnaməsinə uyğun olaraq

D. müvafiq normativ aktına uyğun olaraq

Sual 50
Cavablandırılmayıb
0 - 1
İşarə

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanununa əsasən, korrupsiyaya şərait yaradan hüquqpozmalara aid ***deyildir***:

Cavablardan birini seçin:

A. bilavasitə və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

B. əvəzçilik üzrə işləmək;

C. dövlət orqanlarının maddi və maliyyə vəsaitlərini qanunsuz olaraq referendum üzrə təşəbbüs qruplarının seçki fonduna vermək;

D. maddi nemətləri haqqı ödənilmədən əldə etmək;

Sual 51
Cavablandırılmayıb
0 - 1
İşarə

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında dövlət dilində nəşr olunan çap məhsulları hansı qrafikalı əlifba ilə buraxılmalıdır?

Cavablardan birini seçin:

A. latın

B. həm latın, həm kiril

C. ərəb

D. kiril

Download: http://Yusif.Az

Sual **52**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa əsasən məhkəmə sistemi ilə bağlı doğrudur:
1. Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı Ali Məhkəməsi tərəfindən müəyyən edilir.
2. Azərbaycan Respublikasının hər bir məhkəməsi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərlik etdiyi məhkəmə sisteminin tərkib hissəsidir.
3. Azərbaycan Respublikasının hər bir məhkəməsinin Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürü vardır
4. Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq müəyyənləşdirilir
5. Azərbaycan Respublikasının hər bir məhkəməsi müstəqil hüquqi şəxsdir

Cavablardan birini seçin:

- A. 2, 3, 4
- B. 1, 2, 5
- C. 3, 4, 5
- D. 1, 2, 3

Sual **53**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununa əsasən elektron imza nədir?

Cavablardan birini seçin:

- A. imza sahibini identikləşdirmək üçün nəzərdə tutulan və imza sahibinə məxsus olması barədə verilənlər
- B. imza sahibinin nəzarəti altında olan və yalnız imza sahibinə məxsus olmaqla onu identikləşdirən, əlaqəli olduğu məlumat bildirişinin bütövlüyünü müəyyən etməyə imkan verən verilənlər
- C. digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, imza sahibini identikləşdirməyə imkan verən verilənlər
- D. elektron imzanı adlandırmaq üçün və ancaq imza sahibinə bəlli olan koddan ibarət olan təkrarolunmaz verilənlər

Sual **54**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən daxil olmuş sənədlər üzrə təşkilat rəhbərliyi tərəfindən verilən dərkənarda bir neçə icraçının adı göstərildikdə sənədin əsas icraçısı necə müəyyən edilir?

Cavablardan birini seçin:

- A. Sənədin əsas icraçısı sənədin icrası gedişində müəyyən edilir.
- B. Dərkənarda adı birinci göstərilən şəxs sənədin əsas icraçısıdır.
- C. Dərkənarda adı göstərilən icraçılar tərəfindən əsas icraçı müəyyən edilir.
- D. İcraçılar içərisində daha yüksək vəzifə tutan şəxs sənədin əsas icraçısıdır.

Download: http://Yusif.Az

Sual 55
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Dövlət bayrağının üzərində qaldırılmalı olduğu binalara aid ***deyil***:

Cavablardan birini seçin:

A. yerli məhkəmələrin yerləşdiyi binaların üzərində

B. İnsan hüquqları üzrə müvəkkilin iş yeri olan binanın üzərində

C. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının binalarının üzərində

D. Məhkəmə-Hüquq Şurasının binasının üzərində

Sual 56
Cavablandırılmayıb
0 - 1
İşarə

Səs siqnallarının fərdi kompüterin yaddaşında ikilik koda çevrilməsi prosesinin düzgün ardıcıllığını göstərin:

Cavablardan birini seçin:

A. mikrofon – səs siqnalı – səs kartı – əməli yaddaş

B. səs siqnalı – mikrofon – səs kartı – əməli yaddaş

C. səs siqnalı – mikrofon – əməli yaddaş – səs kartı

D. mikrofon – dəyişkən elektrik cərəyanı – ikilik kod – əməli yaddaş

E. səs kartı – mikrofon – səs siqnalı – əməli yaddaş

Sual 57
Cavablandırılmayıb
0 - 1
İşarə

MS Paint proqramı hansı tip fayllarla işləyə bilir?

Cavablardan birini seçin:

A. .wav

B. .bmp

C. .xls

D. .mdb

E. .txt

Sual 58
Cavablandırılmayıb
0 - 1
İşarə

Şəbəkənin iki seqmentinin birləşdirilməsi üçün istifadə olunan qurğu hansıdır?

Cavablardan birini seçin:

A. şlüz

B. terminator

C. körpü

D. təkrarlayıcı

E. marşrutlaşdırıcı

Download: http://Yusif.Az

Sual 59
Cavablandırılmayıb
0 - 1
İşarə

"Elektron hökumət" portalının "sistemlilik" prinsipi nəzərdə tutur:

Cavablardan birini seçin:

- A. dövlət orqanları tərəfindən elektron xidmətlərin göstərilməsi məqsədi ilə mövcud olan və ya yeni yaradılan informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı əlaqələrinin və uzlaşmasının təmin edilməsini
- B. sistem daxilindəki fəaliyyətin şəffaflığının və hesabatlılığının təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi üçün şəraitin yaradılmasını
- C. informasiya mübadiləsinin real vaxt rejimində həyata keçirilməsi, qarşılıqlı əlaqələrin optimallaşdırılması və bununla bağlı vaxt itkisinin və maliyyə məsrəfinin azaldılmasını
- D. ciddi dəyişikliklər edilmədən portalın proqram-texniki komponentlərinin inkişaf etdirilməsi imkanının olmasını
- E. informasiya ehtiyatlarına bir dəfə daxil edilmiş məlumatlardan "bir pəncərə" prinsipi əsasında çoxsaylı istifadənin təmin edilməsini

Sual 60
Cavablandırılmayıb
0 - 1
İşarə

Eyni vaxtda emal olunan informasiya bitlərinin sayı nəyi ifadə edir?

Cavablardan birini seçin:

- A. keş-yaddaşın tutumunu
- B. keş-yaddaşın sürətini
- C. prosessorun takt tezliyini
- D. əməli yaddaşın tutumunu
- E. prosessorun mərtəbəliliyini

Sual 61
Cavablandırılmayıb
0 - 1
İşarə

İstifadəçi ilə dialoq yaradılmasını, kompüterin idarə edilməsini, onun resurslarından səmərəli şəkildə istifadə edilməsi nəticəsində proqramların işə salınmasını həyata keçirən proqramlar toplusu adlanır:

Cavablardan birini seçin:

- A. tətbiqi proqramlar
- B. instrumental proqramlar
- C. əməliyyat örtüyü
- D. xidməti proqramlar
- E. əməliyyat sistemi

Download: http://Yusif.Az

Sual **62**

Cavablandırılmayıb

0 - 1

İşarə

MS Word 2010 proqramının kömək məlumatlarının çağırılması üçün hansı düymə kliklənir?

Cavablardan birini seçin:

- A. 
- B. 
- C. 
- D. 
- E. 

Sual **63**

Cavablandırılmayıb

0 - 1

İşarə

Abzasın birinci sətrinin əvvəlində boşluq qoyulması üçün hansı düymədən istifadə edilir (MS Word 2010)?

Cavablardan birini seçin:

- A. [Alt]
- B. [Shift]
- C. [Esc]
- D. [Ctrl]
- E. [Tab]

Sual **64**

Cavablandırılmayıb

0 - 1

İşarə

Page Setup (Параметры страницы/Səhifə Parametrləri) dialoq pəncərəsində hansı parametr olmur (MS Word 2010)?

Cavablardan birini seçin:

- A. sütunların sayı
- B. səhifənin ölçüsü
- C. səhifə kənarlarında boş sahələrin ölçüsü
- D. səhifə kənarlarından yuxarı və aşağı sərlövhələrə qədər olan məsafə
- E. səhifənin səmtləşməsi

Sual **65**

Cavablandırılmayıb

0 - 1

İşarə

WordArt əmri nə üçün nəzərdə tutulub (MS Word 2010)?




Cavablardan birini seçin:

- A. sənədə dekorativ mətnin əlavə edilməsi üçün
- B. sənədə əlavə olunmuş dekorativ mətnin redaktəsi üçün
- C. sənədə əlavə olunmuş dekorativ mətnin formatının dəyişdirilməsi üçün
- D. sənəddəki dekorativ mətnin digər sənədə köçürülməsi üçün
- E. sənəddəki dekorativ mətnin yadda saxlanılması üçün

Download: http://Yusif.Az

Sual 66
Cavablandırılmayıb
0 - 1
İşarə

İş vərəqinin adının dəyişdirilməsi Home (Главная/Ev) tabının hansı lent qrupundan yerinə yetirilir (MS Excel 2010):

Cavablardan birini seçin:

- A. Cells (Ячейки/Xanalar)
- B. Styles (Стили/Üslublar)
- C. Number (Число/Ədəd)
- D. Font (Шрифт/Şrift)
- E. Alignment (Выравнивание/Düzləndirmə)

Sual 67
Cavablandırılmayıb
0 - 1
İşarə

Şəkildə sarı rənglə qeyd edilən Move or Copy Sheet (Переместить или скопировать лист/Vərəqi köçür və ya Yerini dəyiş) əmri nə məqsədlə istifadə olunur (MS Excel 2010)?




Cavablardan birini seçin:

- A. seçilmiş sətri və ya sətirləri köçürmək və ya yerini dəyişmək üçün
- B. seçilmiş sütunu və ya sütunları köçürmək və ya yerini dəyişmək üçün
- C. iş kitabında cari iş vərəqinin seçilmiş xanalarını köçürmək və ya yerini dəyişdirmək üçün
- D. iş kitabını köçürmək və ya yerini dəyişmək üçün
- E. iş kitabında cari iş vərəqini köçürmək və ya yerini dəyişdirmək üçün

Sual 68
Cavablandırılmayıb
0 - 1
İşarə

Diaqramda sütunlar üzərində verilənlərin qiymətlərini göstərmək üçün Layout (Макет/Düzən) köməkçi tabının hansı lent qrupundan istifadə edilir (MS Excel 2010)?

Cavablardan birini seçin:

- A. Labels (Подписи/Nişanlar)
- B. Axes (Оси/Oxlar)
- C. Insert (Вставить/Əlavə et)
- D. Current Selection (Текущий фрагмент/Cari seçilmiş)
- E. Analysis (Анализ/ Təhlil)

Download: http://Yusif.Az

Sual **69**
Cavablandırılmayıb
0 - 1
İşarə

Şəkildə oxla göstərilən əmr nə üçün nəzərdə tutulub (MS PowerPoint 2010)?




Cavablardan birini seçin:

- A. təqdimata yeni slayd əlavə etmək üçün
- B. təqdimatın tərtibatını seçməklə yeni təqdimat əlavə etmək üçün
- C. tərtibatları dəyişdirilmiş slaydları ilkin (susmaya görə təyin olunmuş) tərtibata qaytarmaq üçün
- D. yeni təqdimat əlavə etmək üçün
- E. təqdimatı silmək üçün

Sual **70**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Elektron hökumət” portalı hansı hissələrdən ibarətdir:

Cavablardan birini seçin:

- A. rəsmi və qeyri-rəsmi
- B. real və virtual
- C. daxili və xarici
- D. informativ və interaktiv
- E. ümumi və xüsusi

Sual **70**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Elektron hökumət” portalı hansı hissələrdən ibarətdir:

Cavablardan birini seçin:

- A. rəsmi və qeyri-rəsmi
- B. real və virtual
- C. daxili və xarici
- D. informativ və interaktiv
- E. ümumi və xüsusi

Sual **71**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Qışın mülayim keçməsi səbəbi ilə ölkədə elektrik istehlakı keçən ilin eyni dövrü ilə müqayisədə yanvar ayında 8, fevral ayında isə 9% azaldı” cümləsinə əsasən mühakimələrdən hansı mütləq düzgündür?

Cavablardan birini seçin:

- A. Ölkədə elektrik enerjisindən evlərin isidilməsi məqsədi ilə də istifadə edilir.
- B. Yanvar ayında elektrik istehlakı daha az olur.
- C. Ölkənin elektrik istehlakı hər ay davamlı olaraq azalır.
- D. Qış fəsli hər il əvvəlki ilə nisbətən daha mülayim keçir.
- E. Növbəti aylarda elektrik istehlakının bir qədər artacağı gözlənilir.

Download: http://Yusif.Az

Sual **72**

Cavablandırılmayıb

0 - 1

İşarə

Zeytunla bağlı deyilən "*yoxsul torpaqların zəngin ağacı*" ifadəsi zeytun bitkisinin hansı xüsusiyyətini qabardır?

Cavablardan birini seçin:

- A. yetişdiyi ərazidə yaşayan əhali üçün əsas gəlir mənbəyi olması
- B. meyvələrinin fərqli dad və rənglərdə olması
- C. yarpaqlarının qışda tökülmədən yazda yenidən böyüməsi
- D. münbit olmayan torpaqlarda belə yaxşı bar verməsi
- E. gec böyüməsi və bəhrə verməyə gec başlaması

Sual **73**

Cavablandırılmayıb

0 - 1

İşarə

Açılış formasına uyğun gələn kubları müəyyən edin:




Cavablardan birini seçin:

- A. yalnız 2 və 4
- B. yalnız 3 və 4
- C. yalnız 1, 2 və 3
- D. yalnız 1, 2 və 4
- E. yalnız 1 və 2

Sual **74**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

| | | |
|---|---|---|
| səadət | | 125813 |
| ədalət | | 354986 |
| ətalət | = | 715213 |
| tabeli | | 135813 |
| ibadət | | 645213 |

135813 = ?

Cavablardan birini seçin:

- A. tabeli
- B. ibadət
- C. ətalət
- D. ədalət
- E. səadət

Download: http://Yusif.Az

Sual 75
Cavablandırılmayıb
0 - 1
İşarə

Vərəq göstərilən qaydada qatlanmışdır. Son qatlanmış vəziyyətdə vərəqin üzərində müvafiq kəsik edilmişdir. Vərəq açıldıqda alınan variantı tapın:



Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Sual 76
Cavablandırılmayıb
0 - 1
İşarə

15 ildən sonra 4 qardaşın yaşlarının cəmi 107 olacaq. 6 ildən sonra onların yaşları cəminin neçə olacağını tapın.

Cavablardan birini seçin:

A. 73

B. 71

C. 62

D. 53

E. 47

Download: http://Yusif.Az

Sual 77
Cavablandırılmayıb
0 - 1
İşarə

“?” işarəsinin yerinə uyğun gələn ədədi tapın:

| + | a | b | c |
|---|---|---|---|
| a | | 49 | |
| b | | 5a | 36 |
| c | | | |

c=?

Cavablardan birini seçin:

- A. 2
- B. 4
- C. 5
- D. 3
- E. 1

Sual 78
Cavablandırılmayıb
0 - 1
İşarə

“?” işarəsinin yerinə uyğun gələn ədədi tapın:




$$\Rightarrow \frac{a+b+c}{d+e+f}=?$$

Cavablardan birini seçin:

- A. 4
- B. 1
- C. 3
- D. 5
- E. 2

Download: http://Yusif.Az

Sual 79

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Sual 80

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 


B. 


C. 


D. 


E. 


Download: http://Yusif.Az

Sual **81**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın.

| | ● | ■ | ▲ |
|---|---|---|---|
| 15 | 6 | 5 | C |
| 28 | 10 | B | 6 |
| 47 | A | 28 | 3 |

$\Rightarrow A - (B \div C) = ?$

Cavablardan birini seçin:

- A. 9
- B. 8
- C. 6
- D. 10
- E. 7

Sual **82**

Cavablandırılmayıb

0 - 1

İşarə

Cümləni məntiqi tamamlamaq üçün lazım olan variantı tapın:
*Ticarət üçün ... lazımdır.*

Cavablardan birini seçin:

- A. tərəzi
- B. piştaxta
- C. mal
- D. mağaza
- E. pul

Sual **83**

Cavablandırılmayıb

0 - 1

İşarə

Qaçış yarışında I yeri Adil yaxud Tural, II yeri Babək, III yeri isə Adil tutdu. Bütün bu fikirlərin həqiqətə uyğun olmadığı məlumdursa, kimin hansı yeri tutduğunu müəyyən edin:

Cavablardan birini seçin:

- A. I – Adil, II – Tural, III – Babək
- B. I – Tural, II – Babək, III – Adil
- C. I – Babək, II – Adil, III –Tural
- D. I – Adil, II – Babək, III – Tural
- E. I – Babək, II – Tural, III – Adil

Download: http://Yusif.Az

Sual **84**
Cavablandırılmayıb
0 - 1
İşarə

Qaçış üzrə yarışda Alabaş, Toplan və Yalquzaq adlı itlər iştirak edirdi. Yarışın nəticəsinə görə birinci yeri Alabaş və ya Toplan, ikinci Yalquzaq, üçüncü yeri isə Alabaş tutdu. Verilən hökmlərdən heç birinin doğru olmadığı məlumdursa, itlərin hər birinin tutduğu yeri müəyyən edin:

Cavablardan birini seçin:

- A. Toplan – 1, Alabaş – 2, Yalquzaq – 3
- B. Alabaş – 1, Yalquzaq – 2, Toplan – 3
- C. Yalquzaq – 1, Alabaş – 2, Toplan – 3
- D. Yalquzaq – 1, Toplan – 2, Alabaş – 3
- E. Alabaş – 1, Toplan – 2, Yalquzaq – 3

Sual **85**
Cavablandırılmayıb
0 - 1
İşarə

Verilənlər arasındakı məntiqi əlaqəyə əsasən fərqli olanı tapın:

Cavablardan birini seçin:

- A. meşə
- B. okean
- C. kanal
- D. ovalıq
- E. səhra

Sual **86**
Cavablandırılmayıb
0 - 1
İşarə

Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın:
qoyun – sürü
tağ – ?

Cavablardan birini seçin:

- A. göyərti
- B. qarpız
- C. bel
- D. bostan
- E. yemiş

Sual **87**
Cavablandırılmayıb
0 - 1
İşarə

Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın:
çevrə – qövs
dairə – ?

Cavablardan birini seçin:

- A. radius
- B. sektor
- C. diaqonal
- D. diametr
- E. radian

Download: http://Yusif.Az

Sual **88**

Cavablandırılmayıb

0 - 1

İşarə

*"Statistika bu il ölkəyə gələn ümumi turistlərin sayında keçən ilə nisbətən 30 %, İrandan gələn tursitlərin sayında isə 100 %-lik artım olduğunu göstərir"* cümləsinə əsasən verilən mühakimələrdən biri mütləq doğrudur:

Cavablardan birini seçin:

- A. Ölkəyə keçən ildəkindən 2 dəfə çox iranlı turist gəlmişdir.
- B. Ölkə iqtisadiyyatında turizmin payı keçən ilə görə artmışdır.
- C. Keçən il bölgəyə İrandan turist gəlməmişdir.
- D. Ölkəyə gələn turistlərin sayında ən çox artım iranlılarda olmuşdur.
- E. Ölkə yay turizmi baxımından bölgədə aparıcı yerdədir.

Sual **89**

Cavablandırılmayıb

0 - 1

İşarə

Aşağıda verilmiş anaqramlardan hansı birinci sözün sonu, ikinci sözün əvvəlidir?
si (...) ta

Cavablardan birini seçin:

- A. dət
- B. çna
- C. hal
- D. kme
- E. fni

Sual **90**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Download: http://Yusif.Az

Sual **91**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:

A, B, C və D müxtəlif rəqəmləri göstərir.

$$\begin{array}{r} 2BC \\ \times \quad D4 \\ \hline A6A \\ +65B \\ \hline CDCA \end{array} \Rightarrow \frac{A+B}{C\cdot D}=?$$

Cavablardan birini seçin:

- A. $\frac{9}{10}$
- B. $\frac{3}{7}$
- C. $\frac{1}{2}$
- D. $\frac{5}{2}$
- E. $\frac{3}{2}$

Sual **92**

Cavablandırılmayıb

0 - 1

İşarə

Sürətləri 100 km/saat və 80 km/saat olan iki qatarın uzunluqları müvafiq olaraq 100 metr və 120 metrdir. Qatarlar qarşılaşdıqdan neçə saniyə sonra bir-birindən aralanmış olarlar?

Cavablardan birini seçin:

- A. 3,3
- B. 8,4
- C. 6,3
- D. 4,4
- E. 5,2

Sual **93**

Cavablandırılmayıb

0 - 1

İşarə

Ardıcıllıqlar eyni qanunauyğunluğa görə düzülmüşdür. Qanunauyğunluğu müəyyən edib "?" işarələrinin yerinə uyğun gələn variantı tapın:

| | | | | |
|---|---|---|---|---|
| I. | 7 | 21 | 12 | 36 |
| II. | 5 | 19 | 10 | 30 |
| III. | 9 | 23 | 14 | 42 |
| IV. | **?** | 27 | **?** | 54 |

Cavablardan birini seçin:

- A. 13; 18
- B. 18; 12
- C. 15; 18
- D. 16; 18
- E. 13; 16

Download: http://Yusif.Az

Sual **94**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

| X | a | b | c |
|---|---|---|---|
| a | | | b |
| b | | | |
| c | | $a^2$ | |

$\rightarrow \frac{a}{c} = ?$

Cavablardan birini seçin:

- A. 4
- B. c
- C. 1
- D. a
- E. b

Sual **95**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:




Cavablardan birini seçin:

- A. 20
- B. 35
- C. 10
- D. 15
- E. 12

Sual **96**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:

?, 10, 11, 14, 14, 19, 17, 25, 20

Cavablardan birini seçin:

- A. 9
- B. 11
- C. 8
- D. 10
- E. 7

Download: http://Yusif.Az

Sual **97**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:

| | | | | |
|---|---|---|---|---|
| 212 | ▲ | 341 | = | 48 |
| 423 | ▲ | 122 | = | 96 |
| 511 | ▲ | 312 | = | 30 |
| 124 | ▲ | 322 | = | **?** |

Cavablardan birini seçin:

- A. 96
- B. 108
- C. 84
- D. 72
- E. 64

Sual **98**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

I. $a \bullet b = \frac{1}{\frac{a}{b}} + \frac{1}{\frac{b}{a}}$

II. $2 \bullet 5 = ?$

Cavablardan birini seçin:

- A. $\frac{10}{29}$
- B. $\frac{15}{29}$
- C. $\frac{2}{5}$
- D. $\frac{29}{15}$
- E. $\frac{29}{10}$

Sual **99**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

- A. ■■
- B. ■★
- C. ▲▲★
- D. ■★▲
- E. ■

Download: http://Yusif.Az

Sual 100

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Download: http://Yusif.Az

Cavablar

1) E
2) E
3) B
4) D
5) C
6) E
7) A
8) A
9) B
10) E
11) D
12) C
13) E
14) C
15) B
16) A
17) D
18) A
19) D
20) D
21) B
22) A
23) B
24) A
25) D
26) D
27) D
28) C
29) C
30) A
31) B
32) A
33) B
34) B
35) A
36) D
37) A
38) A
39) C
40) D
41) D
42) A
43) D
44) A
45) A
46) B
47) C
48) B
49) C

Download: http://Yusif.Az

50) D
51) A
52) C
53) C
54) B
55) A
56) B
57) B
58) D
59) A
60) E
61) E
62) C
63) E
64) A
65) A
66) A
67) E
68) A
69) C
70) D
71) A
72) D
73) D
74) C
75) B
76) B
77) E
78) E
79) B
80) D
81) E
82) C
83) C
84) C
85) C
86) D
87) B
88) A
89) B
90) E
91) B
92) D
93) A
94) B
95) D
96) C
97) A
98) E
99) A

Download: http://Yusif.Az

100) B

Download: http://Yusif.Az